**UOT 33.314**

**Nailə Sarıyeva**
***Azərbaycan Əmək və Sosial***
***Münasibətlər Akademiyası, magistr***
*sarıyev.seymur@bk.ru*

# YOXSULLUĞUN MAHİYYƏTİ, OBYEKTİV SƏBƏBLƏRİ VƏ AZALDILMASININ ƏSAS İSTİQAMƏTLƏRİ

*Məqalədə yoxsulluğun iqtisadi, təşkilati, sosial–siyasi səbəbləri və nəticələrinin mövcudluğu qeyd edilməklə göstərilir ki, yoxsulluğun iqtisadi əsası iqtisadi artımın əhalinin tələbatına uyğun olmaması ilə izahlandırılır.*

*Həmçinin, yoxsulluq probleminin mahiyyəti, yanaşma səbəbləri, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə yoxsuluğun təsiri problemləri və onun aradan qaldırılma yolları müəyyən edilmiş kriteriyalar əsasında tədqiq edilir.*

***Məqsəd –*** yoxsulluğun səbəblərinin və onun azaldılması istiqamətlərinin müəyyənləş-dirilməsidir.

***Metodologiya –*** tədqiqatda müqayisəli təhlil metodundan istifadə edilmişdir.

***Tədqiqatın nəticələri –*** yoxsulluğun azaldılması istiqamətləri əsaslandırılmışdır.

***Açar sözlər:*** *həyat səviyyəsi, yoxsulluq, tənzimləmə, gəlir, əmək haqqı*

## Giriş

Son illər ərzində iqtisadiyyatın davamlı və rəqabət qabiliyyətli inkişafı istiqamətində çoxşaxəli iqtisadi islahatlar həyata keçirilmişdir. Ölkə əhalisinin həyat səviyyəsinin yüksəldilməsi yoxsulluq probleminin həllini şərtləndirmişdir. Yoxsulluq problemi iqtisadi sistemin tipindən və xarakterindən asılı olmayaraq mövcud olmuşdur. Yoxsulluq ölkələrin sosial-iqtisadi inkişaf səviyyəsi ilə bilavasitə bağlıdır. Yoxsulluq səviyyəsi dövlətin sosial-iqtisadi siyasəti ilə sıx əlaqədar olmaqla əhalinin təbəqələşmə səviyyəsindən asılı olur.

## Yoxsulluğun mahiyyəti və xüsusiyyətləri, azaldılması istiqamətləri

Planlı təsərrüfatçılıq sistemində yoxsulluğun yaranması daha çox əhalinin tələbkarlıq qabiliyyətinin məhdudlaşdırılması ilə bağlı olmuşdursa, bazar iqtisadiyyatına keçid şəraitində bu tendensiya mövcud təsərrüfat əlaqələrinin pozulmasından, vahid xalq təsərrü-fatı sisteminin həmahəng işləməsindən qaynaqlanır. Yoxsulluq sosial-iqtisadi proses olmaqla hər bir ölkənin iqtisadi durumu, onun maddi və sosial şəraiti, islahatlarındərinliyi və onun sosial – nəticələrinə uyğun olaraq formalaşır və həlli yolları zəruriləşir [3].

Müasir şəraitdə beynəlxalq iqtisadi münasibətlərin prinsipləri və qanunauyğun-luqları, qloballaşma prosesləri, işsizlik və həyat səviyyəsinin pisləşməsi meyllərini artırır və yeni aspektlər tələb edir. Bu da öz növbəsində bir sıra qorxu və risklərin yaranmasına səbəb olur [1]. Birləşmiş Millətlər Təşkilatının 2000-ci ildə Baş Assambleyasının Cenevrədə keçirilən sosial-iqtisadi inkişafa dair sessiyasında qloballaşmanın iqtisadiyyatın mərkəzi problemi olaraq, maddi nemətlərin bölgüsündə gəlir əldə edilməsində sosial sferada qeyri-bərabərlik yaratması qeyd edilmişdir. Gəlir səviyyəsi ölkələrdə alıcılıq qabiliyyətinin və əmtəə xidmət təklifinin miqdarı və istehlak dəyərlərinin qiyməti ilə ölçülür. Yoxsulluq dövlətlər arasında iqtisadi əlaqələr, miqrasiya problemləri və kapital

axınının intensivləşməsi ilə müşahidə olunduqda yoxsul ölkələrin gəlirlərinin bir hissəsi inkişaf etmiş ölkələr tərəfindən mənimsənilir. Belə ki, ucuz iş qüvvəsi və təbii resursların istifadəsi üçün cəlb olunan kapitala görə az xərclə yüksək mənfəət əldə etmək mümkün olur ki, bununda bölünməsində maliyyə və pul sahibi daha çox pay mənimsəyir. Yoxsulluq həmçi xroniki bir proses olmaqla qloballaşan bazar iqtisadiyyatı şəraitində daha da dərinləşir.

Yoxsulluq səviyyəsi makroiqtisadi göstərici olub, onun qarşısının alınması həyat səviyyəsinin yüksəldilməsi probleminin sinonimi hesab olunur. Yoxsulluğun qarşısının alınmasına yönəldilən tədbirlər sosial müdafiə tədbirlərinin məqsədli təşkili və idarə edilməsilə bağlı kriteriyaları özündə əks etdirir.

Respublikanın ayrı-ayrı bölgələri özünəməxsus xüsusiyyətləri, fərqli inkişaf dinamikasına malik olduğu üçün onların yoxsulluq metodları üzrə qütbləşməsi və təsnifləşdirilməsi aparılır. Bu zaman adambaşına düşən məcmu gəlir səviyyəsi və real istehlak həcmi əsas götürülür. Ona görə də məcmu gəlirlə yanaşı, onun real alıcılıq qabiliyyəti tələbat və onun ödənilməsi dərəcəsi kimi adambaşına düşən istehlak həcmi maddi və mənəvi nemətlərin tələbatın ödənilmə dərəcəsində prioritetliyi əsas götürülməklə yoxsulluğun səviyyəsinin müəyyənləşdirilməsində başlıca kriteriya hesab olunmalıdır.

Ölkənin sosial–iqtisadi inkişaf konsepsiyasının mühüm həlqəsi kimi yoxsulluğun aradan qaldırılmasının əsas amilləri olan iqtisadi artım, bölgü və istehlak olunan maddi və mənəvi nemətlərin artırılması mühüm vəzifələr kimi qarşıda durur.

Yoxsulluğun səviyyəsi xroniki və birdəfəlik faktorlardan asılı olaraq dəyişir. Təbiidir ki, yoxsulluq hər bir fərddən, ailədən, regiondan başlayır. Bu baxımdan yoxsul ailələr maddi və mənəvi cəhətdən təmin olunmuş ailələrə nisbətən daha az istehlak edirlər. Bu baxımdan yanaşsaq, ilk növbədə yoxsulluq iqtisadi vəziyyət və demoqrafik tərkib, yaxud hər hansı təsərrüfat və biznes fəaliyyətində yaranan risklərlə ölçülür. İqtisadi vəziyyət yoxsulluğa əhəmiyyətli dərəcədə təsir göstərir. İqtisadi vəziyyətin yoxsulluğa təsirini adambaşına düşən ÜDM-in səviyyəsi, gəlirlərin dinamikası, qiymət tərəddüdləri, həmçinin inflyasiya tempi, sosial gərginliyin artıb–azalması vasitəsilə özünü təzahür edir. Məlum olduğu kimi Azərbaycan Respublikasında yoxsulluğun dərinləşməsinin mühüm səbəblərindən biri də qaçqınlıq və məcburi köçkünlük problemləri və onun uzun müddət sosial-iqtisadi inkişaf səviyyəsində yaratdığı iqtisadi, mənəvi və psixoloji amillərlə bağlı olmuşdur. Hərçənd indiki halda ölkənin ərazi bütövlüyü bərpa olunsa da 1 mln.dan artıq əhalinin həyat səviyyəsi hələ bir müddət öz aktuallığını saxlamaqdadır.

Bazar iqtisadiyyatına keçid və vahid SSRİ xalq təsərrüfatına uyğunlaşmış istehsal sahələri öz əmtəə bazarlarını itirdikləri üçün istehsal olunan məhsullara da tələbat azalmış, liberal iqtisadiyyatın ilkin şərti olaraq idxal hesabına bazarın formalaşmasına gətirib çıxarmışdır. Xarici ölkələrin Azərbaycan əmtəə bazarına məhsul idxalının daha sürətlə artması yerli istehsalın məhsullarının yığılıb qalmasına, müəssisələrin əmək haqqı və digər borcların artmasına, son nəticədə işçi qüvvəsinin azaldılması və işin tamamilə dayandırılması ilə nəticələnmişdir. Yoxsulluğun demoqrafik amili artıq qiymətlərin artması hesabına pensiyaçıların, işləyənlərin və çox uşaqlı ailələrin əmək fəaliyyətindən kənarda qalıb, dövlət himayəsində zəruri müavinət almamaları pulsuz təhsilin, səhiyyə xidmətlərinin azalmasına gətirib çıxarmış, əhalinin məcmu ehtiyatlarının ödənilməsində dövlətin rolunun azalması, şəxsi vəsaitlərinin öz təyinatından ayrılaraq, məhz yoxsulluğu yaradan səbəblər istiqamətində xərclənməsinə gətirib çıxarmışdır.

Yoxsulluğun yaranmasını həmçinin islahatların sosial-iqtisadi nəticələri ilə əlaqələndirmək lazımdır. Bazar iqtisadiyyatı tələblərinə uyğun ilkin şəraitinin yaradılması ilkin kapitalın olması ilə mümkündür. Azərbaycanda müstəqillik şəraitində ilkin kapitalın

yaradılması istehsal, ixracat və əhalinin natural təsərrüfat hesabına öz ehtiyaclarını ödəməklə, yaxud xarici ölkələrdən və əhali resurslarından iqtisadi dövriyyə borc kapital cəlb etməklə vəziyyətdən çıxış yolu tapılır. Bu şəraitlərin hər biri Azərbaycan Respublikasında özünəməxsus xüsusiyyətlər kəsb edir. Belə ki, ixracat məhsulu üçün xammal olan məhsulların istehsalını artırmaq və onun səmərəsini yüksəltmək problemi əlavə kapital qoyuluşu problemi ilə rastlaşır.

Məhz ixracatın stimullaşdırılması tədbirləri və respublikaya kapital axınının ilkin investisiya şəraitinin yaradılması ölkədə daxili imkanların iqtisadi dövriyyə cəlb edilməsi yolu ilə yerli işçi qüvvəsindən istifadə və xidmət sferası üçün kapital axınına səbəb oldu. Yoxsulluğun ilkin araşdırma metodologiyası ümumi iqtisadi durumun və mütərəqqi dəyişmələrin, yoxsulluğun həddinə və əhalinin paylanması dərəcəsinə təsiri ilə araşdırılanda meydana çıxır və spesifik olaraq formalaşır.

Yoxsulluq əhalinin həyat səviyyəsinə görə təbəqələşmə dərəcəsini və yoxsul əhali ilə orta təminatlı və yüksək maddi rifaha malik olan əhali arasında tələbatın ödənilməsinin real vəziyyəti ilə müqayisədə üzə çıxır. Həyat səviyyəsinin bazar iqtisadiyyatı şəraitində təhlili və proqnozu, onun meyar və göstəriciləri sistemində verilib. Yoxsulluqla həyat səviyyəsi arasında ümumi və fərqli cəhətləri nəzərə alıb, daha çox sosializm cəmiyyəti üçün xarakterik olan ümumiləşmiş, sosial-iqtisadi problem əhalinin həyat səviyyəsinin yüksəldilməsi meyarı ilə qəbul olunurdu. Həyat səviyyəsinin ölçülməsinə istehlak olunan maddi və mənəvi nemətlərin məcmu və tələbatının ödənilməsi dərəcəsi kimi yanaşma və uyğun olaraq ölçmə üçün tətbiqi mexanizmlər mövcud idi.

Konseptual yanaşma baxımından yoxsulluq tənzimlənən bir proses kimi beynəlxalq və respublika daxili məqsədli proqramların sosialyönlü və həlli mexanizmlərinin elmi əsaslarla düşünülmüş bir sistem formasıdır. Həm daxili resursları, həm də xarici ölkələrin investisiya və digər maliyyə, maddi yardımlarını nəzərə almaqla respublikada "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf" üzrə dövlət proqramları işlənib hazırlanmış və tətbiq olunur. Yoxsulluğun azaldılmasının məhz iqtisadi inkişafla vəhdətdə proqram xarakterinə gətirilməsi yoxsulluğun kriterial inkişaf istiqaməti olaraq məqsədyönlü fəaliyyət dairəsinə gətirilməsi, digər tərəfdən iqtisadi inkişafın nəticələrinin sosial-iqtisadi effekti kimi baxılması, istehsal bölgü və istehlak sferasının tənzimlənməsi deməkdir.

Real istehlak səviyyəsi, yoxsul ailələrdə, yüksək gəlirlər həddindən həmin ailənin yoxsulluq həddinin çıxarılması meyarı əsas ola bilər. Az təmin olunmuş və tələbatı aşağı olan ailələrdə yüksək gəlir və maddi-mənəvi nemətlər, onun yoxsulluğunun tam ləğvi göstəricisi deyildir. Ona görə də yoxsulluğun azaldılması tamamilə tənzimlənmə mexanizmi proqram xarakterli tədbirlərin kompleks məcmuu kimi formalaşdırılır. Maddi və mənəvi nemətlərin istehlakı arxasında iqtisadi, demoqrafik, coğrafi, sosial amillər gizlənir. Bu amilləri differensial göstəricilər və meyllər formalaşdırır. Bu baxımdan əhalinin təbii artım, məşğulluq səviyyəsi və məşğul olanlarla işləməyənlərin sayının nisbəti, pensiyaçıların və təqaüdçülərin sayı, onların təminat səviyyəsi, təbii iqlim şəraiti, əmtəə və xidmət təklifi yoxsulluğun formalaşması və yoxsulların sayının müəyyən edilməsi amilləridir.

Yoxsulluq maddi və mənəvi nemətlərin istehsalı, bölgüsü və istehlakı sferasında baş verən dəyişikliklərin, maddi, mənəvi və xidmət cəhətlərinin göstəriciləri ilə vəhdətdə öyrənilir. Ona görə də yoxsulluğu aşağıdakı kimi təsvir etmək olar (şəkil 1).

Hər bir cəmiyyətdə iqtisadi inkişafın və əhalinin tələbatını nəzərə alan zəruri maddi və mənəvi nemətlərin məcmuu, həmin ailənin istehlak büdcəsini təşkil edir. İstehlak büdcəsi insanın yaşayışı üçün lazım olan maddi və mənəvi nemətlərin minimum səviyyəsini, onun tərkibini müəyyən edir. Həyat səviyyəsinin yüksəldilməsi, normativ göstəricilərinin hüquqi qanunvericilik bazasının yaradılması, həmçinin əhalinin sosial müdafiə

məqsədləri üçün astana və hesab göstrəricisi kimi qəbul olunur. Minimum yaşayış səviyyəsi ümumim iqtisadi artım və əhalinin tələbatının dinamik dəyişməsi ilə bağlı olaraq kəmiyyət və keyfiyyətcə dəyişir.

Gəlirlərin yaşayış minimumundan aşağı olması həmin ailələrin nisbi yoxsulluğunu müəyyən edir. Əhalinin sayı, təbii artım, onun yaş və məşğuliyyət quruluşu, ailənin təminat səviyyəsini, onun gəlir və istehlakının quruluşunu yaradır. Əhalinin təbii artımı müstəqillik dövründən aşağı düşməyə başlayıb. Gəlirlərin yaşayış minimumundan aşağı olması həmin ailələrin nisbi yoxsulluğunu müəyyən edir. Əhalinin sayı, təbii artım, onun yaş və məşğuliyyət quruluşu, ailənin təminat səviyyəsini, onun gəlir və istehlakının quruluşunu yaradır. Əhalinin təbii artımı müstəqillik dövründən aşağı düşməyə başlayıb. İqtisadi ədəbiyyatda təbii artımla maddi rifah arasında reqressiya əlaqəsi olmasa da ev təsərrüfatı göstəriciləri ailədə üzvlərin artması ilə onların gəlirlərinin azalmasını sübut edir. Yoxsulluq həddi məhz uşağı çox olan ailələrdə daha aşağıdır. Hər bir yeni doğulan uşağa uyğun gəlirlərin 25 % artmasını tələb edir. Bu da yoxsulluq səviyyəsini dəyişdirir.




**Şəkil 1. Yoxsulluğun sxematik təsviri**
*Qeyd:* [2, 4] əsasında tərtib edilmişdir

Azərbaycan əhalinin ümumi sayı ilə əmək qabiliyyətli yaşda olan əhali arasında əlverişli nisbət mövcuddur (cədvəl 1). Əhalinin sayının artımına uyğun olaraq əmək qabiliyyətli insanlarının sayı da artır. İqtisadi fəal əhalinin ümumi sayının statistik göstəriciləri üzrə 95,0 % məşğul olanlar kimi qəbul olunur. Əlbəttə, məşğulluq meyarı özəlləşdirilmiş əmlak şəraitində torpaq payı və mülkiyyət hüququ olanlar götürülür. Əhalinin demoqrafik tərkibi, məşğulluğunun mülkiyyət münasibətlərindən asılılığı və təsərrüfat formalarında fəaliyyəti onun əməyinin ödənilməsi xarakterini və səviyyəsini müəyyən edir. Ona görə də yoxsulluq nisbi proses olaraq regionlarda təsərrüfatın sahələri və onların məhsuldarlığı və əmtəə bazarına çıxmaq qabiliyyəti ilə ölçülür. Azərbaycanda əhalinin yoxsulluğunun demoqrafik göstəricisi hər bir ailədə işləyənlərin işləməyənlərə nisbəti ilə ölçülür. Bütövlükdə əməkqabiliyyətli yaşında olan əhalinin sayı 2018-ci ildə bütün əhalini

sayına nisbətən 68% civarındadır.

İqtisadiyyatın dayanıqlı inkişafının təmin olunması, əhalinin sosial rifahının yüksəldilməsi, sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncam və Fərmanları ilə təsdiq edilmiş “Azərbaycan 2020 Gələcəyə baxış” İnkişaf kosepsiyası və “milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri” müəyyən olunmuş tədbirlərin icrasının uğurlu davam etdirilməsi, həmçinin müntəzəm və sistemli islahatların və məqsədyönlü tədbirlərin həyata keçirilməsi nəticəsində iqtisadi artıma nail olmuş, qeyri-neft sahələrinin inkişafı sürətlənmişdir. Görülmüş işlərin nəticəsində 2019-cu ildə ÜDM real ifadəsi 2.2% artaraq cari qiymətlərlə 81.7 milyard manat olmuşdur. Adambaşına düşən ÜDM-nin həcmi 8247.0 manat təşkil etmişdir.

Araşdırmalar göstərir ki, potensial baxımından hər məşğul olanın məcmuu gəliri özü və ailəsini təmin etmək üçün, onun yaşaması üçün lazım olan normativ istehlak büdcəsindən 2 dəfə çox olan gəlirlə ödənilməlidir. Əks halda gəlir səviyyəsi bu potensial həcmdən az olanda yoxsulluq prosesi formalaşacaq. Yoxsulluğun makroiqtisadi əsasları ümumi daxili məhsulun artımı, onun istifadəsi, adam başına düşən səviyyəsinin yüksəldilməsi respublikada həyata keçirilən bir sıra tədbirlərdə və yeni investisiya proqramlarında əks olunur. ÜDM-nin büdcə və sahibkarlıqla əlaqəsi, əlverişli bölgü prinsipləri yoxsulluğun

***Cədvəl 1***

**Əhalinin həyat səviyyəsinin sosial-iqtisadi göstəriciləri**

| Göstəricilər | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| Əhalinin sayı, min nəfər | 9705.6 | 9810.0 | 9898.1 | 9981.5 | 10067.1 |
| O cümlədən | | | | | |
| Əmək qabiliyyətli yaşda, min nəfər | 6677.8 | 6705.5 | 6771.6 | 6842.5 | 6894.5 |
| Əhalinin təbii artımın, hər 100 nəfərinə | 11.7 | 10.6 | 8.9 | 8.4 | 8.7 |
| Əhalinin pul gəlirləri, mln. man | 41744.8 | 45395.1 | 49187.98 | 53103.7 | 57035.0 |
| Adam başına düşən pul gəlirləri, min manat | 240.5 | 252.5 | 238.4 | 276.0 | 292.6 |
| Əhalinin istehlak xərcləri, manat | 260.6 | 272.4 | 280.5 | 286.2 | 298.4 |
| Ümumi daxili məhsul, mln.manat | 54380.0 | 60425.2 | 70337.8 | 800092.0 | 81681.0 |
| Adam başına ÜDM, manat | 5706.6 | 6269.6 | 7226.0 | 8156.2 | 8247.0 |
| Dövlət büdcəsinin gəlirləri, mln.manat | 17498.0 | 17505.7 | 16518.7 | 22508.9 | 24398.5 |
| Ümumi daxili məhsulda, %-lə | 32.2 | 29.0 | 23.5 | 28.1 | 29.9 |
| İqtisadiyyatda məşğul olan işçilərin orta aylıq nominal əmək haqqı, manat | 466.9 | 499.8 | 528.5 | 544.6 | 635.1 |
| Pərakəndə ticarət əmtəə dövriyyəsi, mly.manat | 25.7 | 30.2 | 35.3 | 37.1 | 39.4 |
| Pullu xidmətlərin həcmi, mlrd.manat | 7462.8 | 80527.0 | 8636.0 | 9131.8 | 9607.3 |
| Adam başına düşən pullu xidmətlərin dəyəri, manatla | 783.1 | 821.7 | 887.2 | 929.9 | 970.01 |
| Pərakəndə əmtəə dövriyyəsinin fiziki həcm indeksləri əvvəlki ilə nisbətən %-lə | 111 | 108.2 | 102.5 | 103.0 | 103.6 |
| Pərakəndə ticarət dövriyyəsinfə qeyri-dövlət sektorunun payı (mly. manat) | 25682.3 | 29728.0 | 35252.3 | 37072.2 | 39348.4 |

*Qeyd:* Az. Dövlət Statistika Komitəsi. Bakı, 2020

mövcud vəziyyətini və onun azaldılması yollarını formalaşdırır. Dövlət büdcəsinin gəlirlərinin ÜDM-də payı, fikrimizcə, yoxsulluğun azaldılması yolunda dövlətin maliyyə imkanlarının tam ödənilməsi haqqında əsas verir.

**Nəticə**

Beləliklə, yoxsulluğun makroiqtisadi problemləri özəl sektorda iş yerlərinin açılması və iqtisadiyyatın strukturunda mütərəqqi dəyişmələr ilə əlaqədə təhlil olunmalıdır. Bu günkü özəlləşdirmə və torpaqların özəl sektorda olması ilkin resurs potensialının bir tərəfini, onun maddi əsasını yaradır. Onun maliyyə əsası isə həmin vəsaitlərdən istifadə etmək üçün pul, kredit, xarici resursların iqtisadi dövriyyə cəlb edilməsi yolları ilə mümkünlüyünü əsaslandırır. Beləliklə, yoxsulluq probleminin həlli kompleks yanaşma tələb edir.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**

1. Əlirzayev Ə.Q. Iqtisadiyyat: düşüncələr, baxışlar. Bakı: Bakı Dövlət Universoteti, 2002, s.466
2. Маер В.Ф. Доходы населения и рост благосостояния народа, М., Мысль, 1968,с. 250
3. Рутгайзер В.М. Ресурсы развития непроизводственной сферы, М., Мысль, 1975, с.229
4. Зыкин Б.Н. Эффективность региональной экономики, М., Наука, 1981, с.191
5. http://stat.gov.az
6. http://economy.gov.az

**Наила Сарыева**

**СУЩНОСТЬ, ОБЪЕКТИВНЫЕ ПРИЧИНЫ БЕДНОСТИ И ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ЕЁ СОКРАЩЕНИЯ**

***Резюме***

В статье, отмечая наличие экономических, организационных, социально–политических причин и последствий бедности, показано, что экономическая основа бедности объясняется недостаточностью экономического роста для удовлетворения потребностей населения.

Также изучаются сущность проблемы бедности, причины ее подхода, проблемы влияния бедности на повышение уровня жизни населения и пути ее преодоления на основе установленных критериев.

***Цель*** – выявление причин бедности и направлений ее сокращения.
***Методология*** – в исследовании использовался метод сравнительного анализа.
***Результаты исследов*ания** – обоснованы направления сокращения бедности.
***Ключевые слова:*** *уровень жизни, бедность, регулирование, доход, заработная плата*

**Naila Sarıyeva**

**THE ESSENCE OF POVERTY, OBJECTIVE REASONS AND MAIN DIRECTIONS OF REDUCTION**

***Resume***

The article, noting the presence of economic, organizational, socio-political causes and consequences of poverty, shows that the economic basis of poverty is explained by the lack of

economic growth to meet the needs of the population.

The essence of the problem of poverty, the reasons for its approach, the problems of the impact of poverty on improving the standard of living of the population and ways to overcome it on the basis of established criteria are also studied.

***Purpose* -** the goal is to identify the causes of poverty and the ways to reduce it.

***Methodology* –** The results of the study the method of comparative analysis.

***Findings*** – the directions of poverty reduction are justified.

***Keywords:*** *standard of living, poverty, regulation, income, wages*